AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Rusiya Federasiyasında Təhsil




| | |
|---|---|
| Ümumi məlumat və qəbul qaydaları | 1-2 |
| Maliyyələşmə | 3 |
| Tələb olunan sənədlər | 4 |
| Təhsil Nazirliyi ilə əlaqə | 5 |

## Ümumi məlumat

Rusiya Federasiyası tərəfindən 2016/2017-ci tədris ili üzrə Azərbaycan Respublikası vətəndaşlarına Rusiya Hökumətinin büdcəsi hesabına Rusiya ali məktəblərində təhsil almaq üçün təqaüdlər ayrılıb. Təqaüd Proqramında iştirak edən universitetlərin siyahısı ilə **keçiddən** tanış ola bilərsiniz.

Təqaüd Proqramı çərçivəsində bakalavriat və magistratura səviyyələrində aşağıdakı ixtisaslar üzrə yerlər ayrılmışdır:

- Riyaziyyat və mexanika (01.00.00)*;
- Fizika və astronomiya (03.00.00)*;
- Kimya (04.00.00)*;
- Torpaqşünaslıq elmləri (05.00.00)*;
- Biologiya elmləri (06.00.00)*;
- İnformatika və hesablama texnikası (09.00.00)*;
- Maşınqayırma (15.00.00)*;
- Tətbiqi geologiya, dağşünaslıq, neft-qaz (21.00.00)*;
- Nanotexnologiya və nanomateriallar (28.00.00)*;
- Kliniki tibb (31.00.00)*;
- Kənd təsərrüfatı, meşə və balıq sənayesi (35.00.00)*;
- Baytarlıq (36.00.00)*;
- İqtisadiyyat və idarəçilik (38.00.00)*;
- Servis və turizm (43.00.00)*;
- Təhsil və pedaqoji elmlər (44.00.00)*;
- Tarix və arxeologiya (46.00.00)*;
- Musiqi incəsənəti (53.00.00)**.

***İxtisasların kodu***

*****Rusiya tərəfindən əlavə imtahan tələb olunur, əlavə məlumatı keçiddən əldə edə bilərsiniz***

Müsabiqədə iştirak etmək arzusunda olan Azərbaycan Respublikası vətəndaşlarından http://russia.study/registration linkindən **qeydiyyat-müraciət formasını** doldurmağı və **18 may 2016-cı il tarixi saat 12:00-dək** tələb olunan bütün sənədlərin surətini (skan pdf formatında) elektron poçtla russia.admissions@edu.gov.az ünvanına göndərmələri xahiş olunur.

Elektron poçtla göndərilən sənədlərin əslini isə yalnız **13, 16, 17, 18 may tarixlərində saat 11:00-12:00** arası Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzinə əlaqədar şəxsə (Tavad Mustafayeva) təqdim etməyiniz xahiş olunur.

**Maliyyələşmə**

Tələbələr üçün nəzərdə tutulmuş Rusiya Hökuməti hesabına təhsil aşağıdakı xərcləri əhatə edir:
Rusiya Federasiyası tərəfindən:

- ödənişsiz təhsil;
- universitet yataqxanasında yaşayış;
- aylıq təqaüd.

Təhsil yerinə gediş-gəliş xərcləri  və tibbi sığorta tələbələrin özləri tərəfindən qarşılanır.

**Tələb olunan sənədlər:**

1. **Ərizə forması** (tam şəkildə doldurulmuş, çap olunmuş və namizəd tərəfindən imzalanmış). Ərizə formasının doldurulması ilə bağlı nümunəni **keçiddən** əldə edə bilərsiniz.
   ***Qeyd: Əsli təqdim ediləcək sənədlərə 3 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm. ölçüdə) əlavə edilməlidir.***
2. Təhsil sənədləri;
   a. bakalavriat təhsil səviyyəsi üçün: ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında sənədin **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**
      - ✓ *Hal-hazırda təhsil alanlar məktəb tərəfindən məzun olacağına dair arayış və son qiymət cədvəlinin **rus dilinə notariat qaydada tərcümə və təsdiq edilmiş surəti.***

   **b.** magistratura təhsil səviyyəsi üçün: bakalavr diplomu və əlavəsinin (qiymət cədvəli) **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**
      - ✓ *Hal-hazırda təhsil alanlar universitet tərəfindən məzun olacağına dair arayış və son qiymət cədvəlinin **rus dilinə notariat qaydada tərcümə və təsdiq edilmiş surəti.***

**Qeyd**: namizəd bakalavr diplomunu xarici təhsil müəssisəsinin məzunu olaraq almışdırsa, həmin ali təhsil sənədinin Azərbaycan Respublikası ərazisində tanınması/nostrifikasiyasına dair sənədin surəti;

3. Hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin **notariat qaydada təsdiq olunmuş surəti;**
4. Şəxsiyyət vəsiqəsinin surəti;
5. Ümumvətəndaş pasportunun **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti**;
6. Sağlamlıq haqqında arayış – AZS-086 nömrəli tibbi arayışın **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**
7. QİÇS/HİV xəstəliklərinin olmamasına dair tibbi arayışın **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**
8. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surətləri (mövcud olduğu halda);**

**Təhsil Nazirliyi ilə əlaqə**

Təqaüd Proqramı ilə bağlı suallarınızı russia.admissions@edu.gov.az elektron poçtuna ünvanlaya bilərsiniz.

**“Rossotrudniçestvo”nun Azərbaycandakı Nümayəndəliyi ilə əlaqə**

Пономарёва Юлия Валерьевна (+994124964500, riccabiturient@yandex.ru)

.